Süleyman Abdulla

## Ümid Ölən Gün

Bir yaz axşamıydı ümid ölən gün,
Hava çox çisəkdi, vaxt az qaranlıq.
Yolu işıqsızdı, yolçusu üzgün,
Başqa cür düşürdü bu yaz qaranlıq.

Divardakı saat ağrı sayırdı,
Rəngi ağarmışdı şamda şö'lənin.
Bir adam kənarda pıçıldayırdı,
Dəfn edin yerinə məni ölənin.

Yoxsa sağlığına gözmü uçurdu?
Bəxtin oyununa yumub bax hələ.
Ölən ana qədər pöhrə puçurdu,
Nə çiçək açmışdı, nə yarpaq hələ.

O tanrı bildiyi, özünü bəndə,
Basmışdı bağrına yağı yadı yer.
Bu doğma ölkədə, qürbət vətəndə,
Dəfn üçün ümidə tapılmadı yer.

Qalımı cəfadı, gedimi səfa,
Vardığı dünyanın adı ki Haqdı.
Nə göydə etibar, nə yerdə vəfa,
Ortalıqda qalan körpə uşaqdı.

Zülmət gizləmişdi bətnində ahı,
Nə gecə yarıydı, nə də ki tən gün.
Deyildi açılan bir də sabahı,
Bir yaz axşamıydı ümid ölən gün.